

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 avqust 2022-ci il №67 (2678) https://mod.gov.az Qiymәti 30 qəpik

## Prezident İlham Əliyev Türkiyənin Zəfər Bayramı münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Zəfər Bayramı münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrik məktubunda 30 Avqust - Zəfər Bayramının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana və qardaş Türkiyə xalqına ən səmimi təbriklərini və xoş arzularını yetirib.

Məktubda deyilir: "Yüz il əvvəl Dumlupınarda Qazi Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılmış şanlı qələbə qardaş xalqınızın qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Türkiyənin müstəqillik və istiqlaliyyət mübarizəsi salnaməsinə qızıl hərflərlə həkk olunmuş bu böyük zəfər xalqınızın sarsılmaz iradəsinin, yenilməzliyinin, birliyinin və şücaətinin bariz nümunəsidir. Vətənlərinin azadlığı və müstəqilliyi yolunda mərdlik və rəşadət göstərmiş, canlarını vermiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Möhtəşəm zəfərdən ötən bir əsr sonra bu gün qardaş Türkiyə Sizin rəhbərliyiniz ilə hərtərəfli inkişaf edən, güclü və qüdrətli bir ölkəyə çevrilmişdir. Dünyada və regionda baş verən mürəkkəb proseslərdə qətiyyətli və prinsipial mövqeyi, sülhün, haqq-ədalətin bərqərar olması üçün ardıcıl səyləri ilə Türkiyə beynəlxalq aləmdə nüfuz qazanmışdır. Ölkənizin bütün sahələrdə əldə etdiyi uğurları bizi olduqca fərəhləndirir".

Təbrik məktubunda "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri olmadığını qürur hissi ilə vurğulayan Prezident İlham Əliyev qeyd edib: "Dövlətlərarası münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Əminəm ki, tarixən bir-birinə dəstək və dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik".

## Hərbi dənizçilərimiz beynəlxalq yarışın qalibi oldular

Gücü, qüdrəti və qazandığı şanlı Qələbəylə dünyaya səs salan ordumuzun bütün qoşun növləri kimi, Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti də qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

İlk yaradıldığı dövrdən bu günə qədər Xəzər dənizinin Azərbaycana məxsus sektorunda fəaliyyətini yüksək səviyyədə təşkil edən Hərbi Dəniz Qüvvələri bu gün də ərazi sularımızın təhlükəsizliyinin təmin edilməsi kimi müqəddəs vəzifəni uğurla icra edir. Bu uğurların davamlılığını təmin etmək üçün Hərbi Dəniz Qüvvələrinin tərkibində fəaliyyət göstərən döyüş və döyüş təminatı gəmilərinin modernləşdirilməsi işinə çox böyük önəm verilir. Belə ki, gəmilərin naviqasiya avadanlıqları, radiotexniki vasitələri, rabitə qurğuları müasir tələblər çərçivəsində qurulur. Şəxsi heyətin peşəkarlığının artırılması məqsədilə hərbi əməkdaşlıq çərçivəsində Türkiyə, Pakistan və digər ölkələrdə keçirilən müxtəlif təlim və məşqlərə göndərilən hərbi dənizçilər öz ixtisaslarının incəliklərinə dərindən yiyələnirlər. Bir sözlə, hazırkı dövrdə Hərbi Dəniz Qüvvələrinin inkişafı və müasir tələblər səviyyəsində qurulması üçün planlı şəkildə aparılan fəaliyyətlər uğurla həyata keçirilir.

(Ardı 5-ci səhifədə)









Bir millət iki dövlətin qürur günü

4-cü səhifədə



Ömrü Vətən üçün yaşayan oğul

6-cı səhifədə



Sabahkı uğurlara köklənən addım səsləri

7-ci səhifədə



“Hər əsgəri doğma balam bilirəm”

8-ci səhifədə

# Müdafiə naziri Ankarada Heydər Əliyev Parkını ziyarət edib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 30-da Ankaradakı Heydər Əliyev Parkını ziyarət edib.

General-polkovnik Zakir Həsənov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.






# Müdafiə nazirinin Türkiyədə işgüzar səfəri davam edir

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyədə işgüzar səfəri davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Quru Qoşunları Ali Hərbi Məktəbinin növbəti buraxılış mərasimində iştirak edib.



# Azərbaycan Ordusunun maddi-texniki təminat məsələləri müzakirə olunub





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, avqustun 29-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin iştirakı ilə Maddi-Texniki Təminat Baş İdarəsində toplantı keçirilib.*

Toplantıda Azərbaycan Ordusunun maddi-texniki təminat məsələləri müzakirə edilib.

Müdafiə nazirinə məruzə olunub ki, Azərbaycan Ordusunda şəxsi heyətin təminat məsələlərinin yüksək səviyyədə saxlanılması daim diqqət mərkəzindədir.

Bildirilib ki, qardaş Türkiyənin və digər qabaqcıl ölkələrin təcrübələrindən istifadə olunmaq şərtilə hərbi qulluqçuların xidmət şəraiti, ərazi relyefi və iqlim şəraitinə müvafiq olaraq təminat məsələlərinə dair təkliflər hazırlanıb.

Təkliflərə əsasən bütün qoşun növləri üzrə silahlanmaya yeni qəbul edilən texnika və avadanlıqların, eləcə də texniki vasitələrin daha da səmərəli istifadəsi nəzərdə tutulur. Eyni zamanda, hərbi qulluqçuların ümumqoşun quru ərzaq payı normasının tərkibi zənginləşdirilir.



Qeyd olunub ki, yeni təkliflərin əsas məqsədi şəxsi heyətin bütün növ təminatını daha da yaxşılaşdırmaqdır.

Sonra hərbi qulluqçuların təminat növlərində yeni təklif olunan nümunələrə baxış keçirilib.

Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyətinin bütün təminat məsələlərinə nəzarətin gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişlər verib.

General-polkovnik Zakir Həsənov yeni təkliflərin nəzərə alınması ilə bağlı aidiyyəti şəxslər qarşısında tapşırıqlar qoyub.

# Hərbi İnstitutda qardaş Türkiyənin Zəfər Bayramı qeyd olunub



Heydər Əliyev adına Hərbi İnstitutda qardaş Türkiyə Respublikasının 30 Avqust - Zəfər Bayramının 100-cü ildönümü münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ulu öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürkün xatirələri bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Sonra Türkiyənin İstiqlal savaşından bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin tarixindən, avqust ayının 30-nun Türkiyədə ən önəmli günlərindən biri olduğundan, ölkələrimizdə davamlı olaraq bu cür əhəmiyyətli tədbirlərin keçirilməsinin vacibliyindən danışıblar.



Ölkələrimiz arasında münasibətlərin bugünkü dostluq, qardaşlıq və strateji müttəfiqlik səviyyəsinə çatdırılmasında dövlət başçılarının müstəsna rolunun olduğu xüsusi vurğulanıb.

Sonda vətənpərvərlik mövzusunda mahnılar ifa olunub və şeirlər səsləndirilib.

# Bakıda Türkiyənin Zəfər bayramı qeyd edilib



Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə iki ölkənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər Bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Səfir Türkiyə Respublikasının qurulduğu gündən bu günədək terror təşkilatlarına qarşı mübarizəsini qərarlılıqla davam etdirdiyini bildirib. O, türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazandığını qeyd edib.

"Zəfərin nə olduğunu, şübhəsiz, qardaş Azərbaycan yaxşı bilir. Qarabağın 30 illik işğalı Türkiyənin siyasi və mənəvi dəstəyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində Qələbə ilə yekunlaşıb", - deyə Cahid Bağçı diqqətə çatdırıb.

Türkiyənin son illərdə inkişaf edərək dünyada böyük güc mərkəzinə və söz sahibinə çevrildiyini vurğulayan səfir ölkəsinin mühüm beynəlxalq məsələlərin həllində fəal iştirak etdiyini vurğulayıb. Bu xüsusda koronavirusa qarşı mübarizədə, dünyada taxıl qıtlığı böhranının və digər problemlərin həllində mühüm rol oynadığını diqqətə çatdırıb.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev qardaş türk xalqını və Türkiyə Silahlı Qüvvələrinin bütün şəxsi heyətini 30 Avqust - Zəfər Bayramı münasibətilə təbrik edərək bildirib ki, yüz il əvvəl qazanılmış bu Zəfər Türkiyənin şanlı tarixinin ən parlaq qələbələrindəndir.

Baş Qərargah rəisi qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" və ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də uğurla inkişaf edir. Qardaş ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəyə çatmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu var.

Ölkələrimiz arasındakı tarixi, dini və mədəni əlaqələrin hərbi sahədə mövcud əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığını vurğulayan general-polkovnik Kərim Vəliyev deyib: "Hazırda Azərbaycan Ordusunun müasir ordu modelinə, xüsusilə də Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılır. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Bu birlik regionda əmin-amanlığın və sabitliyin qorunmasına töhfə verir".



Xarici işlər nazirinin müavini Elnur Məmmədov Zəfər bayramı münasibətilə Türkiyəni təbrik edib, bu qələbənin Türkiyənin bu günü və gələcəyi üçün güclü zəmin yaratdığını bildirib. O, əsrlərə söykənən dövlətçilik tarixi ilə qardaş Türkiyənin bu gün beynəlxalq arenada mühüm rol oynadığını, Türkiyənin bir çox qlobal məsələlərin həll edilməsində etibarlı vasitəçilik rolu olduğunu vurğulayıb.

Nazir müavini torpaqlarımızın işğaldan azad olunması dövründə bütün təzyiqlərə baxmayaraq, Türkiyənin ölkəmizin haqq səsinin eşidilməsi üçün daim dəstək göstərdiyini diqqətə çatdırıb. Türkiyənin haqqın tərəfində olduğunu deyən E.Məmmədov qardaş ölkənin bizə göstərdiyi dəstəyin xalqımız tərəfindən hər zaman xatırlanacağını bildirib.

Nazir müavini, həmçinin Şuşa Bəyannaməsinin imzalanması ilə ölkələrimiz arasındakı münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edib. O, ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu və bütün sahələrdə əməkdaşlığın davam etdirildiyini diqqətə çatdırıb.

Sonda Türkiyənin milli müdafiə naziri Hulusi Akarın, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin, Quru Qoşunları Komandanı ordu generalı Musa Avseverin, Hərbi Dəniz Qüvvələrinin Komandanı admiral Adnan Özbalın, Hərbi Hava Qüvvələrinin Komandanı ordu generalı Atilla Gülanın təbrik videomüraciətləri nümayiş etdirilib.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd edilib



Avqustun 30-da Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə konsulluğun iqamətgahında tədbir keçirilib.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, əvvəlcə Azərbaycan və Türkiyə respublikalarının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət Himni səsləndirilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz qonaqları salamlayıb, bayramı birgə qeyd etməkdən məmnunluğunu bildirib, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər bayramı və Türkiyənin Silahlı Qüvvələr Günü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxuyub. Baş konsul çıxışında Zəfər bayramının 100-cü ildönümündə qardaş Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfəri də qeyd etməkdən şad olduqlarını diqqətə çatdırıb. Bildirib ki, rəşadətli Azərbaycan Ordusu əzm və cəsarəti ilə tarixə qızıl hərflərlə yazılan bir zəfər qazanıb və işğalı sonlandıraraq şəhər və kəndləri bir-bir azad edib.

Ötən həftə Laçın şəhəri ilə Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi münasibətilə təbriklərini çatdıran Məhmət Emin Kiraz Türkiyə Cümhuriyyətinin qurucusu qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" ifadəsini səsləndirib, Azərbaycan Ordusunun Ali Baş Komandanı başda olmaqla bu qələbə sevincini yaşadan əsgər və zabitlərə minnətdarlığını bildirib, qazilərə uzun ömür və cansağlığı arzulayıb, şəhidlərə Allahdan rəhmət diləyib.

Türkiyənin Naxçıvandakı Baş konsulu qeyd edib ki, bu gün böyük zəfərin 100-cü ilinə qovuşduq, gələn il isə cümhuriyyətimizin 100-cü ildönümünü qeyd edəcəyik. Zəfərimizin və cümhuriyyətimizin ildönümlərinin yüzilliklər boyu qeyd olunacağına əminik. Əminik ki, qardaş Azərbaycanın Böyük Zəfəri də yüz illər boyu qeyd ediləcək. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

Vurğulanıb ki, gücünü ortaq tarix, mədəniyyət və dilimizdən alan Azərbaycan-Türkiyə münasibətləri bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də inkişaf etməkdədir. Bölgədə daimi sülhün və sabitliyin təminatı olan qardaşlığın və işbirliyinin 2021-ci ildə imzalanan "Şuşa Bəyannaməsi"ndə qeyd olunan strateji müttəfiqlik istiqamətində hər sahədə güclənməyə davam edəcəyinə və dövlətlərimizin müstəqilliyi kimi əbədi olacağına heç bir şübhə yoxdur.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov Türkiyə xalqının milli istiqlal tarixinin şanlı səhifəsi olan Zəfər bayramının 100 illiyi və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edib. Bildirib ki, bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İkitərəfli əlaqələrimizin inkişafında Naxçıvan Muxtar Respublikasının da mühüm rolu vardır. Xüsusilə iqtisadi, ticarət, təhsil, səhiyyə, mədəniyyət sahələrində və ordu quruculuğunda əməkdaşlıq uğurla davam etdirilir.

Ali Məclis sədrinin birinci müavini Zəfər bayramının 100-cü ildönümü və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə bir daha təbriklərini çatdırıb, Türkiyə dövlətinə və xalqına daha böyük zəfərlər arzulayıb, çıxışını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun fikirləri ilə tamamlayıb: "Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş münasibətlərimiz nümunə gücündədir. Bu əlaqələr bundan sonra da nümunə gücündə olacaq və daha da inkişaf edəcəkdir".

Sonra Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi tərəfindən hazırlanan Türkiyənin şanlı hərb tarixindən bəhs edən videoçarx nümayiş olunub, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Naxçıvan Dövlət Universitetinin baş müəllimi Zemfira Babayevanın pianoda ifaları dinlənilib.

# Qardaş Türkiyəmizin Zəfər Bayramının 100 illiyini təbrik edirik!

Bu il avqustun 30-da Türkiyənin İstiqlal Savaşındakı əzm, qətiyyət, dözümlülük, şücaət, rəşadət, qəhrəmanlıq və Vətən sevgisi nəticəsində əldə edilmiş şanlı qələbəsinin təcəssümü olan Zəfər Bayramının 100-cü ildönümünü qardaş Türkiyə və Azərbaycan xalqları hədsiz qürur hissi ilə təntənəli şəkildə qeyd edibləр.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə başlayan Türkiyə-Azərbaycan münasibətləri ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də yüksələn xətt üzrə inkişaf etdirilməkdədir.

Danılmaz həqiqətdir ki, qardaş ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəsinə çatmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın müstəsna rolları vardır.



Azərbaycanın etibarlı müttəfiqi olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin mühüm tərkib hissəsidir. Ölkələrimiz arasındakı tarixi, dini və mədəni əlaqələr hərbi sahədə mövcud əməkdaşlığın inkişafına yeni imkanlar açır. Hərbi əməkdaşlığın gücləndirilməsi, eyni zamanda, xalqlarımız arasındakı qardaşlığı möhkəmləndirir. Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir. Bu münasibətlərimizin bundan sonra da davam etdirilməsi və gələcək nəsillərə ötürülməsi olduqca vacibdir.

Vətən müharibəsi Azərbaycan-Türkiyə əlaqələrini daha da möhkəmləndirdi. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Azərbaycan və Türkiyə əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Azərbaycan xalqı küçələrə axışdı və böyük sevinc hissi ilə Azərbaycan və Türkiyə əsgərlərini salamladı. Bu tarixi gündə Azərbaycanın bütün şəhərləri Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

Hazırda Azərbaycan-Türkiyə əlaqələri Şuşa Bəyannaməsinə əsasən müttəfiqlik münasibətlərinə söykənir və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına töhfə verməkdədir.

Eyni soykökünə, dilə, dinə, mədəniyyətə malik Azərbaycan və Türkiyə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri tarix boyu mövcud olub və olacaqdır.

Bu əlaqələr getdikcə daha da inkişaf edəcək, möhkəmlənəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaq.

1922-ci il avqustun 30-da milli azadlıq mücadiləsinə qalxan mətanətli Türkiyə ordusu böyük sərkərdə, görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün komandanlığı altında Qurtuluş Savaşının taleyini və Türkiyənin gələcək müqəddəratını həll edəcək zəfər qazanmışdır. Türkiyə xalqının yaddaşına "bir millətin azadlıq günü" kimi həkk olunan 30 avqust tarixi hər bir türkün qürur mənbəyi, iftixar yeridir.

Müstəqillik uğrunda döyüşlərdə Türk əsgərinin yenilməzliyini, Türk xalqının rəşadətini düşmənlər də öz xatirələrində etiraf ediblər. İstiqlal Savaşında Türk millətinin göstərdiyi şücaət Türk tarixinə qızıl hərflərlə yazılmış, əfsanələr yaratmışdır. Bu savaşın qəhrəmanlarının yaratdığı obraz, onların azadlıq və dövlətçilik arzuları, bir millət iki dövlət - Azərbaycan və Türkiyənin timsalında gerçəkliyə çevrilib.

Azərbaycan Ordusunun rəhbərliyi və şəxsi heyəti Türkiyə Silahlı Qüvvələrinin rəhbərliyi və şəxsi heyətini Zəfər Bayramının 100-cü ildönümü münasibətilə təbrik edir, dövlətçilik və azadlıq uğrunda adını tarixə qızıl hərflərlə yazmış şəhidlərimizin müqəddəs xatirəsini dərin ehtiramla anırlar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Bir millət iki dövlətin qürur günü

*Türkiyənin hərb salnaməsi qurtuluş savaşları, milli mübarizə illəri ilə çox zəngindir. Bu savaşların, mübarizələrin önündə dayanan Meydan savaşı türk dünyasının dirçəliş tarixidir.*




Böyük türk xalqının qürur tarixini yaşadan 30 Avqust - Zəfər bayramı, Silahlı Qüvvələr Günü hər il Türkiyədə böyük çoşqu, təntənə ilə qeyd olunur. "Bir millətin azadlıq günü" kimi qeyd olunan 30 Avqust tarixi hər bir türkün qürur mənbəyi, iftixar yeridir.

Birinci Dünya müharibəsindən sonra Türkiyə çox ağır günlər yaşadı. Osmanlı dövlətinin torpaqlarının müstəmləkəçi dövlətlər arasında bölüşdürülməsi planı türk millətini ayağa qaldırdı. Xalq imperialistlərin bu mənfur planını qətiyyətlə rədd edərək, milli azadlıq hərəkatına başladı və bu mübarizədə qalib gəldi.

...1919-cu ildə Anadolunun işğalı türk xalqının yaddaşında ağır izlər buraxıb. Düşmən qüvvələrin donanması İstanbulu zəbt edib, fransız ordusu Adanada, ingilislər Urfa, Maraş, Samsun və Merzifonda, italyanlar Antalya və Anadolunun cənub-qərbində yerləşiblər. Müttəfiq qüvvələrin hazırlığı ilə 1919-cu il mayın 15-də yunan qoşunlarının İzmirə çıxması vəziyyəti daha da ağırlaşdırıb.

Osmanlı ordusunun generalı Mustafa Kamal Paşa milli iradəyə əsaslanan yeni türk dövlətinin qurulmasından başqa nicat yolu görmürdü. Odur ki, Anadoluda milli azadlıq hərəkatına başlamaq üçün 9-cu ordunun müfəttişi kimi 1919-cu il mayın 16-da "Bandırma" gəmisi ilə İstanbuldan yola çıxır və üç günə Samsuna çatır. Bölgədə vəziyyətlə yaxından tanış olan böyük sərkərdə mayın 21-də İstanbula - Baş Qərargaha göndərdiyi teleqramda yazırdı: "Yunanlar bu bölgədə Pontus dövləti qurmaq kimi bir səfsəfə ətrafında toplaşmış və yunan quldur dəstələri bütünlüklə siyasi təşkilata çevrilmişlər. Vətənin bütünlüyü və millətin istiqlalı təhlükədədir. Millətin istiqlalını yalnız millətin əzm və qərarı qurtaracaqdır".

Mustafa Kamal Paşanın komandanlığı ilə yenidən milli-azadlıq mücadiləsinə qalxan torpaqsevər türk xalqı 1921-ci ildə Sakaryanı qəhrəmanlıqla qorudu. Sakaryada 22 gün gecə-gündüz döyüşən türklər avqustun 23-də düşmənin hərəkət istiqamətini dayandırıb ona sarsıdıcı zərbələr vurdular. Bu savaşda türk ordusu böyük itki versə də, geri çəkilmədi, düşmən hücumunun qarşısını cəsarətlə aldı. Sakarya savaşında çox sayda zabit şəhid olduğu üçün bəzi tarixçilər, tədqiqatçılar bu döyüşləri "zabitlər savaşı" kimi də adlandırırlar.

Anadolunun düşməndən azad olunması uğrunda gedən növbəti savaşların da başlanğıcı avqust ayına təsadüf edir. 1922-ci il avqustun 26-da Mustafa Kamal Paşanın komandanlığı ilə bütün cəbhə boyu hücuma keçmək əmri alan türk ordusu hər tərəfdən düşməni geri çəkilməyə məcbur edir. Avqustun 30-da Kutahyanın işğaldan azad edilməsi xəbəri düşmən ordusunu qorxuya salır. İşğalçı dövlətlərin qüvvələri bütün istiqamətlərdə geri çəkilir və məğlub olurlar. Bu döyüşlər türk xalqının şanlı azadlıq tarixinin dönüş nöqtəsi idi.

30 Avqust zəfərindən bir neçə gün sonra - sentyabrın 12-də Mustafa Kamal Paşa Türkiyə Böyük Millət Məclisində çıxış edərkən demişdir: "Böyük Türk Milləti! Ordularımız İzmirimizi, Bursamızı zəfərlə qurtardılar. Aralıq dənizi əsgərlərimizin zəfər təranələri ilə dalğalanır. Böyük Türk Milləti! Ordularımızın qabiliyyət və qüdrəti düşmənlərimizə dəhşət, dostlarımıza əmniyyət verəcək şəkildə özünü göstərdi".

Qurtuluş savaşını Böyük Zəfərlə başa vuran, qısa müddətdə beynəlxalq aləmdə tanınan Türkiyə Cümhuriyyətinin adı zaman keçdikcə dünyanın ən güclü dövlətləri sırasında çəkildi.

Tarixin müxtəlif dönəmlərində yaşadıqları çətinliklərə baxmayaraq, Türkiyə və Azərbaycan qardaş xalqlar kimi hər zaman bir-birinin yanında oldu. "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" deyən böyük Atatürkün, və "Bir millət, iki dövlət" deyən ümummilli lider Heydər Əliyevin kəlamları və bu prinsip əsasında möhkəmlənən əlaqələrimiz davamlı olaraq inkişaf edir. Qardaş ölkə ilə münasibətlərə xüsusi əhəmiyyət verən ulu öndər Türkiyə Böyük Millət Məclisinin kürsüsündən çıxış edərkən deyirdi: "Türkiyə Böyük Millət Məclisi böyük öndər Mustafa Kamal Atatürkün, onun silahdaşlarının, həmkarlarının səyləri nəticəsində, o dövrdə Türkiyədə xalqı daha da irəli aparmaq, mədəniyyətə, demokratiyaya qovuşdurmaq istəyən mütəfəkkir adamların səyləri nəticəsində yaranmışdır..."

Qardaş Türkiyə ərazilərimizin təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanıldığı, talan edildiyi 30 ilə yaxın dövrdə bütün beynəlxalq kürsülərdə Azərbaycanın haqlı mövqeyini müdafiə etdi. Tarixi ədalətsizliyə son qoymaq üçün apardığımız mübarizədə hər zaman yanımızda oldular.

İki ölkə arasında dostluq və qardaşlıq münasibətləri yalnız regionda yox, həm də beynəlxalq miqyasda bütün dövlətlər üçün önəmli nümunədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" festivalında çıxışı zamanı bəyan etdi ki, Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır, deyən dövlət başçısı vurğuladı ki, bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük.

Türk xalqı həmişə haqlının yanında yer alıb. Necə ki, İkinci Qarabağ müharibəsi zamanı, 44 günlük Zəfər salnaməsinin yazıldığı günlərdə qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla 85 milyonluq Türkiyə "Can Azərbaycan" deyib bu dəfə də siyasi və mənəvi dəstəyini əsirgəmədi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Hərbi dənizçilərimiz beynəlxalq yarışın qalibi oldular





(Əvvəli 1-ci səhifədə)

HDQ-nin şəxsi heyəti təkcə ölkədən kənarda deyil, ölkəmizdə təşkil olunan müsabiqələrdə də yüksək səviyyədə peşəkarlıq göstərir. "Beynəlxalq Ordu Oyunları" çərçivəsində Hərbi Dəniz Qüvvələrimizin döyüş hazırlığı poliqonu və müxtəlif təminat bazalarında təşkil olunan "Dəniz Kuboku-2022" yarışlarında hərbi dənizçilərimiz öz bacarıqlarını nümayiş etdirdilər. Yarış iştirakçıları keçirilən müsabiqədə "Dəniz hazırlığı", "Xilasetmə hazırlığı", "Dəniz hədəfinə artilleriya atəşi", "Hava hədəfinə artilleriya atəşi", "Üzən mina hədəfinə atəş", "Təlim məşq kompleksində su ilə mübarizə" adlı 6 çalışmada güclərini sınadılar. "Dəniz Kuboku-2022" beynəlxalq yarışları iştirakçı ölkələrin hakimlər komissiyasının üzvləri tərəfindən şəffaf şəkildə çalışmalar üzrə qiymətləndirildilər. Ümumi nəticələrə əsasən Azərbaycan və Rusiya hərbi dənizçiləri 225 xalla birinci, Qazaxıstan 208 xalla ikinci, İran 178 xalla üçüncü yerə layiq görüldülər.

Beynəlxalq müsabiqədə bir çox uğurlara imza ataraq qalib gələn şəxsi heyətlə görüşüb onların yarışla bağlı təəssüratlarını qeydə aldım. Kapitan-leytenant Müslüm Nadirov bildirdi ki, Dəniz Kuboku beynəlxalq müsabiqəsi beşinci dəfədir ki, ölkəmizdə keçirildi. "Bu cür mötəbər tədbirdə iştirakçı olmaqla yanaşı, yarışa ev sahibliyi etmək bizim üzərimizə düşən məsuliyyəti daha da artırır. Çünki istər təşkilatçılığa, istərsə də çalışmaların icrasına daha ciddi səy göstərməliydik. İştirakçı komandaların "Dəniz Kuboku-2022"-yə ciddi hazırlaşdığı ilk gündən hiss olunurdu. Bunun nəticəsi idi ki, yarışların hər bir mərhələsi gərgin mübarizə şəraitində keçirdi. Son çalışmaya qədər hələ də hansı komandanın qalib olacağını demək mümkün deyildi.

Şükürlər olsun ki, hərbi dənizçilərimiz bu yarışlarda da ordumuzu layiqincə təmsil etdilər. Keçirilən müsabiqədə peşəkarlıq böyük rol oynadı. Yarış öncəsi şəxsi heyət mütəmadi olaraq məşqlər keçmiş, öz bilik və bacarıqlarını daha da təkmilləşdirmişdi. Qarşımıza məqsəd qoymuşduq ki, gücümüzü nümayiş etdirib, beynəlxalq müsabiqədə qalib gələk. Çünki hər kəs bizdən yüksək nəticə və qələbə gözləyirdi. Sevindiricidir ki, komandanlığın bizə olan inam və etimadını layiqincə doğrulda bildik, yarışı birinciliklə başa vurduq".

Digər həmsöhbətim gizir Orxan Ağakişiyev yarışdan əvvəl də, yarış müddətində də yalnız qələbəyə kökləndikləri qeyd etdi. "Komandamız qələbə qazanmaq üçün çalışırdı. İstər döyüş hazırlığı poliqonunda, istərsə də təlim-məşq kompleksində iştirak edən heyətlər ayrı olsalar da, icra olunan çalışmalara hər birimizin qəlbi bir döyünürdü. Hakimlər komissiyası tərəfindən elan edilən nəticələri səbirsizliklə gözləyirdik. Təbiidir ki, icra olunan hər tapşırığın özünə görə çətinliyi var idi. Hətta bir saniyənin, bir patronun da böyük əhəmiyyəti olur ki, yarışın gedişatını tamam dəyişə bilsin. Əksər çalışmalar insandan operativlik və yüksək dəqiqlik tələb edirdi. Odur ki, qazanılan qələbə gərgin əməyin, yüksək peşəkarlığın və birliyin qələbəsi oldu. Bundan sonra da hər birimiz öz ixtisasımız üzrə biliklərimizi daha da artıracaq, hər zaman üçrəngli bayrağımızı zirvələrdə dalğalandırmaq üçün səylə çalışacağıq".

Sonuncu və həlledici olan "Təlim məşq kompleksində su ilə mübarizə" çalışmasında yüksək nəticə göstərən komandadan baş leytenant Murad Qarayevin fikirlərini öyrəndim. Zabit qazanılan qələbədə hamının payı olduğunu bildirdi: "2019-cu ildən "Beynəlxalq Ordu Oyunları"nın Dəniz Kuboku müsabiqəsində iştirak edirəm. 2019, 2020-ci illərdə keçirilən yarışlarda da bu çalışmada iştirak etmişəm və şəxsi heyətlə birlikdə yüksək peşəkarlıq göstərərək birinci pilləyə layiq görülmüşdük. Bu il də həmin çalışmanı layiqincə icra edərək birinci yeri tutduq. Bu təkcə mənim deyil, komandanın bütün üzvlərinin uğurudur. Hər birinə nümayiş etdirdikləri bacarığa, mübarizə əzminə görə təşəkkürümü bildirirəm. Yüksək peşəkarlıq və hazırlıq nəticəsində də qarşımıza qoyulan tapşırıq uğurla icra edildi. Azərbaycan əsgəri bir daha sübut etdi ki, istər döyüş, istərsə də yarış meydanında ən güclü, ən cəsur və ən təcrübəlidir. Qazanılan qələbə münasibətilə bütün yarış iştirakçılarımızı və hərbi dənizçilərimizi ürəkdən təbrik edirəm".

Təkcə dənizçilərimiz deyil, hərbi forma geymiş, üzərində dövlətin və ordunun atributlarını daşıyan hər kəs qalib Azərbaycan Ordusu adını hər zaman qorumalı, Vətənə etdiyi xidmətlə fəxr etməlidir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda idarəetmə müasir rəqəmsal rabitə vasitələri ilə həyata keçirilir



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun rabitə sistemləri imkanlarının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir.*

Ordumuzun bölmələri müasir rəqəmsal rabitə vasitələri ilə təchiz edilib. İşğaldan azad edilən ərazilərdə dislokasiya olunan bölmələrin idarə edilməsində dünyanın ən qabaqcıl ölkələrindən alınan rabitə texnika və vasitələrindən istifadə olunur.

Azərbaycan Ordusunda dayanıqlı rabitənin təşkili və qoşunların gizli idarəedilməsi yüksək səviyyədə həyata keçirilir. Qarşı tərəfin radioelektron mübarizə (REM) vasitələrinə qarşı dayanıqlı yeni rabitə vasitələri alınaraq istifadəyə verilib.

Azərbaycan Ordusunun silahlanmasına, həmçinin bir çox mobil rabitə kompleksləri də daxil edilib. Hazırda bu istiqamətdə görülən işlər davam etdirilir. Eyni zamanda, Azərbaycan Ordusunun silahlanmasında olan döyüş texnikalarındakı rabitə vasitələri müasir radiostansiyalarla əvəzlənir. Cari ilin sonunadək bütün döyüş texnikalarının vahid sistemə çevrilməsi planlaşdırılır.

Bundan əlavə, ordumuzda müasir tələblərə cavab verən cihazlarla təmin edilmiş laboratoriyalar fəaliyyət göstərir. Burada da istehsalatla yanaşı, peşəkar radiomexaniklər tərəfindən cari təmir işləri həyata keçirilir.

Cari ilin iyul ayında Müdafiə Nazirliyinin Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin yeni istifadəyə verilən, ən yeni texnoloji avadanlıqlarla təchiz edilmiş Kiber Təhlükəsizlik Əməliyyatları Mərkəzi Azərbaycan Ordusunun informasiya-kommunikasiya texnologiyaları mühitinə fasiləsiz müşahidə və nəzarəti həyata keçirməklə kibertəhlükəsizliyin təminatında xüsusi əhəmiyyət kəsb edir.

Ümumilikdə, müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunda rabitə işinin daha da təkmilləşdirilməsi ilə əlaqədar komandanlıq qarşısında qoyduğu tapşırıqlar yüksək peşəkarlıqla icra olunur.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Laçın şəhəri, Zabux və Sus kəndlərində hərbi polisin xidməti fəaliyyəti təşkil edilib




*Azərbaycan Ordusunun hərbi polis bölmələrinin Laçın şəhəri, Zabux və Sus kəndlərində xidməti fəaliyyəti təşkil edilib. Qeyd olunan ərazilərdə hərbi polis tərəfindən təhlükəsizlik fəaliyyətləri həyata keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yaşayış məntəqələrində yeni qurulan stasionar və səyyar postlarda sutkalıq xidmət təşkil olunur, buraxılış rejimi, həmçinin xidmət və döyüş növbətçiliyi zamanı hərbi qulluqçular tərəfindən gündəlik nizam qaydalarının yerinə yetirilməsinə nəzarət edilir.

Nəzarət-buraxılış məntəqələrində patrul xidməti həyata keçirilir, obyektlər mühafizə olunur, əraziyə daxil olan texnikanın uçotu aparılır, hərbi nəqliyyat vasitələrinin hərəkəti istiqamətləndirilir, həmçinin kolonların təhlükəsizliyi məqsədilə onlar müşayiət edilir.

Bundan əlavə hərbi polisin tabeliyində fəaliyyət göstərən Kinologiya Mərkəzində xüsusi təlim keçmiş cins itlərinin cəlb edilməsilə ərazidə mina axtarış tədbirləri və qarovul xidmətinin təşkili həyata keçirilir.

# Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin anım mərasimi keçirilib





*Avqustun 28-də İkinci Şəhidlər xiyabanında Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin doğum günü münasibətilə anım tədbiri keçirilib.*

Müdafiə Nazirliyinin bir qrup zabiti, Tərtər rayon ictimaiyyətinin, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələri, Vətən müharibəsinin iştirakçıları, qəhrəmanın ailə üzvləri və döyüş yoldaşları onun məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, anım mərasimində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər qəhrəmanımızın şərəfli həyat yolundan, vətənpərvər zabit kimi Vətənə qüsursuz xidmətindən, şücaət və igidliyindən danışıblar. Qeyd olunub ki, o, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüş əməliyyatlarında və həmin əməliyyatlar zamanı bir çox xüsusi təyinatlı tapşırıqların uğurla yerinə yetirilməsində xüsusilə fərqlənib.

Xidməti dövründə A.Əliyevin göstərdiyi rəşadətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyi, müvafiq sərəncamlarla polkovnik-leytenant Anar Əliyevə ölümündən sonra ən yüksək fəxri ad - "Vətən Müharibəsi Qəhrəmanı" adı və bir neçə döyüş medalının verildiyi xüsusi vurğulanıb.

Vətən Müharibəsi Qəhrəmanının ailə üzvləri şəhidlərimizə göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirələrinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildiriblər.

# Ömrü Vətən üçün yaşayan oğul



Azərbaycanın ən dilbər guşələrindən biri - şairlər, sənətkarlar ocağı, eləcə də zəngin qızıl yataqları ilə digər bölgələrdən fərqlənən Kəlbəcər rayonu cəsur oğulları ilə hər zaman seçilib.

Belə igid oğullardan biri də şəhid polkovnik-leytenant Anar Əliyevdir. 1980-ci il avqustun 28-də Kəlbəcərdə ziyalı ailəsində dünyaya göz açan Anar təkcə Kəlbəcərin ilk sakinlərindən hesab olunan "Kalvavəllər" nəslinin deyil, doğma yurdunun, elinin, bütün Azərbaycanın fəxrlə andığı qəhrəmanlardan biridir. Müəllim ailəsində böyüyən, hələ uşaqlıqdan yaşıdlarından hər zaman fərqlənən Anar öz davranışı və tərbiyəsi ilə hamının diqqət mərkəzində olmağı bacarırdı. Düşmən tərəfindən 1993-cü ildə Kəlbəcər rayonunun işğalı doğma yurd-yuvasından ayrı düşən, köçkün həyatı yaşayan kəlbəcərlilərdən, eləcə də şəhid Anar Əliyevin ailəsindən yan keçmir. Hələ uşaq ikən qisas hissi ilə böyüyən Anar hərbçi olmaq qərarına gəlir və ömür yolunu C.Naxçıvanski adına Hərbi Liseydən salır. 1997-ci ildə isə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olur və 2001-ci ildə hərbi məktəbi "Qoşun kəşfiyyatı" ixtisası üzrə müvəffəqiyyətlə bitirir. O, "leytenant" hərbi rütbəsindən "polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlir və qoşunlarda müxtəlif vəzifələrdə xidmət edir. Anar harada xidmət etməsindən asılı olmayaraq, komandanlıq tərəfindən qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlir.

Erkən yaşlarından məcburi köçkün həyatı yaşaması, dədə-baba yurdundan ayrı düşməsi onda düşmənə qarşı ikiqat nifrət hissi yaratmışdı. Doğma el-obasının azadlığı naminə və şəhidlərimizin ruhu qarşısında verdiyi qisas andına sədaqəti Vətən müharibəsində özünü göstərdi. Polkovnik-leytenant Anar Əliyevin rəhbərlik etdiyi heyət qarşıya qoyulan döyüş tapşırıqlarının müvəffəqiyyətlə icra edilməsinə nail oldu. Füzulinin, Cəbrayılın, və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşan polkovnik-leytenant Anar Əliyev 21 oktyabr 2020-ci il tarixində vəzifə borcunu yerinə yetirərkən döyüş meydanında şəhidlik zirvəsinə ucaldı. Ömür yolunun 40-cı ilində əbədiyyətə qovuşdu. Ərazi bütövlüyümüzün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirdiyi zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Anar Əliyev (ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb və eyni zamanda, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Şəhid polkovnik-leytenant Anar Əliyev haqqında onun tabeliyində olan zabit və əsgərlər böyük fəxarət hissi ilə danışırlar. Bildirirlər ki, gələcək nəslə örnək həyat yaşayan zabitin qəhrəmanlığı dillərə dastan oldu. Bu gün xalq olaraq təsəllimiz ondadır ki, şəhid oğullarımızdan xoş xatirələr və örnək izlər qalıb.

Ömrünün 40-cı yaşında ailəsinə, övladlarına şərəfli ad - şəhid adı əmanət edən Anarın xatirəsi hər zaman ehtiramla anılacaq. Göy üzünü bəzəyən üçrəngli bayrağımız dalğalandıqca şəhadətə yüksələnlər qəlblərdə yaşayacaqlar.

**Nərgiz HÜSEYNOVA**
**Bakı şəhəri**

# Şəhid gizir Cəmil Həşimlinin xatirəsi anıldı



Vətənimizin azadlığı uğrunda canından keçən və bu gün ordu sıralarında xidmətini şərəflə davam etdirən igid oğulların sayəsində torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Belə qəhrəman oğullarımızdan biri olan şəhid gizir Cəmil Həşimlinin doğum günü münasibətilə anım tədbiri keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, eləcə də işğal altında olan tarixi torpaqlarımızın azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Tədbirdə Kürdəmir rayon İcra Hakimiyyətinin rəhbərliyi, Kürdəmir Qarnizonundan bir qrup hərbi qulluqçu, ziyalılar, şəhid ailələri, qazilər, məktəblilər, din xadimləri və digər qonaqlar iştirak etdilər.

Mərasim iştirakçıları Kürdəmir rayon Şəhidlər xiyabanını ziyarət edərək şəhid gizir Cəmil Həşimlinin məzarı üzərinə gül dəstələri düzərək, ruhuna dualar oxudular.

Çıxış edənlər şəhidin keçdiyi şərəfli döyüş yolundan söz açdılar. Bildirildi ki, 44 gün davam edən Vətən müharibəsində ordumuzun qazandığı Zəfər tariximizin səhifələrinə qızıl hərflərlə yazıldı. "Cəmil Həşimli kimi oğullarımızın igidliyi ölkəmizin gələcəyi olan gənclərimiz üçün nümunədir. Bu cür oğulların sayəsində illərdir ağlayan gözlərimiz gülür. Sevincimizə cismən şərik ola bilməsələr də, ruhən yanımızdadırlar. Onların hər biri qəhrəman kimi vuruşaraq, düşməndən azad etdikləri hər kəndə, qəsəbəyə, şəhərə qürur mənbəyimiz olan üçrəngli bayrağımızı sancdılar. Canını bu Vətən üçün sipər edən bütün şəhidlərimizi hər zaman hörmət və ehtiramla anacaq, xatirələrini uca tutacağıq".

Şəhidin anası Simuzər xanım övladı ilə qürur duyduğunu, bir övlad itirsə də, min övlad qazandığını bildirdi. Eləcə də bütün şəhid anaları adından Vətən uğrunda canını qurban verən şəhidlərimizə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Sonda şagirdlər Vətənə, qəhrəmanlığa, vətənpərvərliyə həsr olunan şeirlər oxudu, duyğulu və kövrək anlar yaşandı.

**İsa İSMAYILOV**
**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Hərbi hissələrdə psixoloji işə dəstək fəaliyyətləri davam etdirilir





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçularının iştirakı ilə hərbi hissələrdə plana uyğun olaraq psixoloji işə dəstək tədbirləri həyata keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması, psixoloji sağlamlığının qorunması məqsədilə kollektiv, qrup, eləcə də fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilib, ideoloji və psixoloji maarifləndirmə üzrə söhbətlər aparılıb.

Bundan əlavə şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb və hərbi qulluqçulara xidmətlə bağlı lazımi tövsiyələr verilib.

## "Snayper həddi" müsabiqəsinin bağlanış mərasimi keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində İran İslam Respublikasının Yəzd şəhərində keçirilən "Snayper həddi" müsabiqəsinin bağlanış mərasimi keçirilib.

Mərasimdə müsabiqədə iştirak edən ölkələrin heyətləri, hərbi attaşelər, kütləvi informasiya vasitələrinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Çıxışlar zamanı qeyd olunub ki, "Snayper həddi" müsabiqəsinin keçirilməsində əsas məqsəd döyüş hazırlığının artırılması, habelə iştirakçı ölkələr arasında bu sahədə təcrübə mübadiləsinin aparılmasıdır.



Bağlanış mərasimində milli musiqilərdən ibarət bədii hissə nümayiş etdirilib.

Qalib komandalara kubok, medal və qiymətli hədiyyələr təqdim olunub, "Snayper həddi" müsabiqəsi bağlı elan edilib.

*Sıra hazırlığı*

## Sabahkı uğurlara köklənən addım səsləri

*Hərbi hissənin ərazisində sıra hazırlığı məşğələsi keçən gənc əsgərlərin ayaq səsləri yaxınlıqdakı binalarda əks-səda verib ətrafa yayılırdı. Xidmətə yeni başlayan əsgərlər sıra meydanında inamla addımlayırdılar. Onların üz-gözündə sevinc, inam vardı. İnanırıq ki, bu gün atdıqları inamlı addımlar sabah onları uğurlara qovuşduracaq.*



Gənc əsgərlərin sıra hazırlığı məşğələsində atdığı qətiyyətli addımların səsi onların dərsini izləmək marağımızı xeyli artırdı. Vaxt itirmədən sıra meydanında hərbi vərdişləri böyük həvəslə mənimsəyən gənc əsgərlərə yaxınlaşdıq. Zabitin verdiyi müxtəlif tapşırıqları yerinə yetirən əsgərlər diqqətlərini məşğələnin gedişinə yönəldiblər. Təcrübəli zabit əsgərlərə dəyərli məsləhət və lazımi məlumatları verir, nümunəvi addımlamaq üçün zəruri olan vərdişləri aşılayırdı. Əsgərlər sağa-sola və geriyə dönmələri, eləcə də başqa hərəkətləri bacarıqla yerinə yetirirdilər. Hiss olunurdu ki, onlar ötən müddət ərzində keçirilən məşğələlərdə fəal iştirak edərək, sıra vərdişlərini yaxşı mənimsəyiblər.

Sıra hazırlığı məşğələsində fasilə yarananda gənc əsgər Tağı Bəbirli ilə söhbət etdik. Hərbi xidmətinin ilk günlərinin sevincini yaşayan gənc əsgər dedi ki, bu gün fərəh içindəyəm. "Çünki Vətənə əsgər olmuşam, doğma ordumuzun sıralarında xidmət edirəm. Hərbi xidmətdə ilk addımlarını atan gənc əsgər kimi söz verirəm ki, mən bu kişilik məktəbinin sınaqlarından alnıaçıq, başıuca çıxacağam. Hərbi bilikləri dərindən mənimsəyəcək, döyüş hazırlığımı daim artıracağam. Hərbi xidmətə Vətən qarşısındakı övladlıq borcumu ləyaqət və şərəflə yerinə yetirməyə gəlmişəm. Qalib bir ordunun əsgəri olmaq, onun sıralarında xidmət etmək olduqca qürurvericidir. Bizə dərs və məşğələ keçən zabitlərin əksəriyyəti ordumuz və xalqımız üçün uğurla başa çatan İkinci Qarabağ müharibəsinin iştirakçılarıdır. Tez-tez uğurlu döyüşlərindən, erməni qəsbkarlarını məğlubiyyətə uğratdıqları əks-hücum əməliyyatlarından danışırlar. Söhbətlərinə maraqla qulaq asır, qəhrəmanlıqları ilə fəxr edirik. Dinlədikcə insanın ağlından yalnız bir düşüncə keçir. İgidlikdə onlara oxşayacam. İlk günlərdən dərs və məşğələlərdə fəal iştirak edir, hərbi bilik və döyüş vərdişlərini həvəslə mənimsəyirik. Xidmətə gəldiyimiz qısa vaxt ərzində hərbi biliklərə, döyüş vərdişlərinə dərindən yiyələnmişik. İnamla deyə bilərəm ki, biz artıq dünənin yox, sabahın əsgərləriyik. Əminəm ki, böyük uğurlar bizi gözləyir.

Əsgərlər Şəhriyar Hüseynov, Elvin Mirzəyev, Fəyyaz Fərəcov, Rəşad Hacıyev və başqaları da sıra hazırlığı məşğələsində fəal iştirak etdiklərini, hərbi bilikləri böyük maraqla öyrəndiklərini dedilər.

Söhbətimiz başa çatandan sonra gənc əsgərlərin sıra hazırlığı məşğələsi öz axarı ilə davam etdi. Əsgərlər sırada inamla addımladılar. Onların ritmik addım səsləri şəxsi heyəti sabahkı uğurlara kökləyirdi.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ordusunun inventarına daha üç ədəd "Bayraktar AKINCI" daxil edilib




Türkiyə Silahlı Qüvvələrinin inventarına daha üç ədəd "Bayraktar AKINCI" TİHA-Pilotsuz Döyüş Aparatı (Taarruzi İnsansız Hava Aracı) daxil edilib.

Türkiyənin "Baykar Makine" şirkətinin texniki direktoru Selçuk Bayraktar bu barədə rəsmi tviter səhifəsində bildirib.

Məlumatda qeyd edilib ki, bununla da Türkiyə Hərbi Hava Qüvvələrində xidmət göstərən "Bayraktar AKINCI"ların sayı 12-yə yüksəlib.

### Norveç və Britaniya Ukraynaya "Black Hornet" mikrodronları verəcək



Norveç və Britaniya Ukraynaya məbləği 9 milyon dollardan çox olan pilotsuz mikro uçuş aparatları vermək barədə razılığa gəliblər.

Bu barədə məlumat Norveç Müdafiə Nazirliyi tərəfindən açıqlanıb.

"Norveç və Böyük Britaniya Ukraynaya ianə çərçivəsində "Black Hornet" pilotsuz mikro uçuş aparatları almaq üçün səyləri birləşdiriblər. Tədarükün qiyməti 90 milyon Norveç kronu (9,2 milyon dollara yaxın) təşkil edəcək", - deyə nazirliyin məlumatında bildirilib. Mikrodronlardan başqa, tərəflər həmin PUA üçün ehtiyat hissələri göndərəcək, həmçinin bu qurğuların daşınmasını və mütəxəssislərin təlimini təmin edəcəklər. Maliyyələşmə Norveçin 41,1 milyon dollar yatırdığı Britaniya fondunun xətti ilə həyata keçiriləcək.

Norveç Müdafiə Nazirliyi qeyd edir ki, "Black Hornet" mikrodronlarından həm ABŞ-da, həm də Böyük Britaniyada istifadə olunur. Bu PUA-lar kəşfiyyat aparmağa və hədəfi aşkarlamağa kömək edir. Onlar şəhər mühitində əməliyyatlar keçirilməsinə xüsusilə uyğun gəlir.

Dronlar cib telefonundan kiçikdir, onlar canlı video ötürür və hərəkətsiz şəkillər çəkir.

"Black Hornet" dronunun çəkisi 33 qramdan azdır. O, video-çəkiliş aparmağa imkan verən iki kamera ilə təchiz olunub. Saniyədə 6 metrədək sürət yığa bilən qurğu havada 25 dəqiqəyədək qala bilir.

### Rusiya Silahlı Qüvvələrinin şəxsi heyətinin sayı artırılacaq



Rusiya Prezidenti Vladimir Putin Silahlı Qüvvələrin şəxsi heyətinin sayının artırılması haqqında fərman imzalayıb.

Sənədə əsasən, Rusiya ordusunun şəxsi heyətinin sayı 137 min nəfər artırılaraq, 2 milyon 39 min 758 nəfərə çatdırılacaq. Bundan əvvəl, 2017-ci ildə imzalanmış fərmanda ordunun şəxsi heyətinin sayı 1 milyon 902 min 758 əsgər və zabit müəyyən edilmişdi.

### Əfqanıstan ordusunun sayı 150 min nəfərə çatıb



"Taliban" hərəkatının nəzarətindəki hərbi qüvvələrin sayı hazırda 150 min nəfərdən ibarətdir.

Bu rəqəmi Əfqanıstanın müdafiə naziri Məhəmməd Yaqub Mücahid açıqlayıb.

"Milli ordunun sayı hazırda 150 min nəfərə çatır, onun formalaşdırılması prosesi davam edir. Ordunun sıralarının təmizlənməsi və yeni qüvvələrin yığılması üzrə iş aparılır. Bizim hər birində 3 minə yaxın hərbi qulluqçu olan səkkiz sərhəd briqadamız var və biz öz torpağımızın hər qarışını istənilən üsulla qoruyuruq", - deyə o, bazar günü Kabildə keçirilən mətbuat konfransında bildirib. Onun sözlərinə görə, bir illik idarəçilik dövründə taliblər 60-dan çox zədələnmiş helikopteri təmir etməyə və uçuşa hazırlamağa nail olub.

**AZƏRTAC-ın materialları əsasında**

# Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tədbirlər icra edilir





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tapşırıqlar icra edilir.

Həmin ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri yüksək peşəkarlıqla yerinə yetirilir.

Yaşayış məntəqələrində əsas səylər təhlükəsizlik qaydalarına ciddi riayət etməklə, kombinə edilərək kustar üsulla hazırlanan partlayıcıların və tələ minaların aşkar olunaraq zərərsizləşdirilməsinə yönəldilir.

*Məişət*

# "Hər əsgəri doğma balam bilirəm"



Azərbaycan əsgərinin təkcə sosial-məişət şəraiti deyil, qidalanması da yüksək səviyyədə təşkil olunur. Müasir görünüşü ilə göz oxşayan yeməkxanalar, Azərbaycan mətbəxinin müxtəlif təamları da orduya göstərilən diqqət və qayğının təzahürüdür.

"N" hərbi hissəsində olduğumuz zaman bunun bir daha canlı şahidi olduq. Yeməkxana növbətçisi gizir Orxan Kərəmli yeməkxananın müasir standartlara cavab verdiyini, sanitariya normaları və qaydalarına ciddi riayət olunduğunu dedi. "Burada çalışan və xidmət edən bütün heyət əsgərlərimizin qidalanmasının yüksək səviyyədə olması üçün əllərindən gələni əsirgəmir. Təcrübəli aşpazlarımızın bişirdiyi ləziz yeməklər sayəsində şəxsi heyətin gündəlik qidalanması yüksək səviyyədədir".

- Rəşadətli Azərbaycan Ordusunun sıralarında xidmət edən cəsur oğullarımıza qayğı göstərməyi özümə mənəvi borc bilirəm. Çünki onların sayəsində illərdir düşmən işğalında qalan tarixi torpaqlarımız azad edildi. İndi biz də üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlməli, analıq borcumuzu yerinə yetirməliyik. Düzgün qidalanma sağlamlığın ən əsas şərtlərindən biridir. Bu cür qidalanma fiziki sağlamlığa da təsir edir. Qida rasionunun planlanması və icrası elə həyata keçirilir ki, şəxsi heyət arasında mövsümi xəstəliklərə yoluxma halları minimuma ensin. Çünki xəstəliklərin böyük əksəriyyəti düzgün qidalanmamaq nəticəsində orqanizmdə maddələr mübadiləsinin pozulması ilə əlaqədar yaranır. Bunun üçün də əsgərlərimizin qida rasionunu hər zaman yüksək səviyyədə saxlamaq üçün əlimizdən gələni edirik, - aşpaz Durdanə Soltanova dedi.

Mülki işçi Zülfünaz Əliyeva bildirdi ki, əsgərlərimizə hazırladığımız bütün yemək çeşidləri milli mətbəximizdəndir. Səhər, nahar, şam yeməkləri öncədən təsdiq olunur və buna uyğun olaraq hazırlanır.

Qida rasionuna süd, bal, yağ, cem, ət, kartof, düyü, qarabaşaq, balıq, şirniyyat növləri, təbii meyvə şirələri və s. daxildir. Azərbaycan əsgərinin sosial-məişətinin daim diqqət mərkəzində olduğunu vurğulayan Z.Əliyeva da əsgərlərimizə dadlı təamlar hazırlamağın qürurunu yaşadığını bildirdi.

- Vətən müharibəsində oğlum düşmən gülləsinə tuş gələrək şəhid olub. Bu gün oğlum yanımda olmasa da, buradakı hər əsgəri doğma balam bilirəm. Oğluma göstərdiyim diqqət və qayğını, sevgi və nəvazişi əsgər balalarıma da göstərirəm. Üzərimizə düşən vəzifəni şərəflə yerinə yetirməyə çalışıram. Hər zaman çalışmışam ki, bişirdiyimiz yeməklər onların ürəyincə olsun və doğma evlərində bişirilən yeməklərin dadını hiss edə bilsinlər. İnanıram ki, mən və digər aşpazlar buna da nail ola bilirik. Onlardan ana kimi bir istəyimiz, bir gözləntimiz var - Vətən torpağının keşiyində hər zaman qürurla, məğrur və ayıq-sayıq dayansınlar.

Hərbi hissədə yaradılan şərait, burada çalışan hərbi və mülki işçilərin fikirləri, arzuları, ordumuza sevgiləri bizə xoş təəssüratlar bəxş etdi. Onların əsgərlərimizə göstərdikləri diqqət və qayğı könlümüzü riqqətə gətirdi. Bir daha əmin olduq ki, sağlam qidalanan Azərbaycan əsgəri sağlam ruhda, sağlam düşüncədə xidmət edir.

**Baş leytenant
Orxan HÜSEYNLİ
"Azərbaycan Ordusu"**

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir





Kəlbəcər və Laçın rayonlarında Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən bir sıra strateji əhəmiyyətli hakim yüksəkliklərdə mühəndis təminatı üzrə tapşırıqların icrası davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə ümumilikdə 62 km-dən çox yeni təminat yolları çəkilib.

Azad edilən ərazi və hakim yüksəkliklərdə mühəndis təminatı üzrə həyata keçirilən zəruri tədbirlər yüksək peşəkarlıqla yerinə yetirilir.

# İdman

## Şahmatçımız Aydın Süleymanlı Türkiyə Superliqasında bürünc medal qazanıb



Şahmat üzrə "Türkiye İş Bankası Satranç Süper Ligi" komanda turniri keçirilib.

Türkiyə Superliqasında iştirak edən Azərbaycan şahmatçısı Aydın Süleymanlının şərəfini qoruduğu "Bayegan Pendik Satranç Spor Klubu" sonda 19 xalla liqanı üçüncü pillədə başa vurub.

Türkiyə çempionu adını isə "Göktürk SSK" kollektivi qazanıb. Onlarla eyni xal toplayan və yalnız əlavə göstəricilərə görə ikinci olan "Türk Hava Yolları SK" klubu gümüş medalların sahibi olub.

Türkiyə Superliqasında Aydın Süleymanlıdan başqa daha dörd şahmatçımız mübarizə aparıb. Onlardan xanım təmsilçimiz Xəyalə Abdulla və kişilərdən ibarət yığmamızın üzvü Nicat Abbasovun şərəfini qoruduğu "Darruşafaka SK" klubu 6 xalla 11-ci, qrosmeysterimiz Zaur Məmmədovun çıxış etdiyi "Rota Koleji SK" komandası 10-cu, Abdulla Qədimbəylinin mübarizə apardığı "Gökay Vakfı SK" klubu isə 3 xalla sonuncu - 13-cü olub.

## Cüdo üzrə Azərbaycan yığmasından qızıla bərabər gümüş



Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində keçirilən yeniyetmələr arasında dünya çempionatının komanda yarışlarının nəticələri məlum olub.

Azərbaycan yığması ilk görüşdə Bosniya yığmasına 4:1, dörddəbir finalda Kanada yığmasına 4:2, yarımfinalda isə Ukrayna yığmasına 4:3 hesabı ilə qalib gəlib və finala vəsiqə qazanıb.

Azərbaycan komandası finalda Fransa millisi ilə qarşılaşıb. Milli yığmamızın üzvü Fidan Əlizadə Ukrayna ilə keçirilən yarımfinal görüşündə zədələndiyinə görə, final qarşılaşmasına çıxa bilməyib və komandamız görüşə 0:1 hesabı ilə geridə başlayıb. Buna baxmayaraq, yığmamız hesabı 3:3 edə bilib.

Çempionatın qaydalarına görə, ümumi hesab 3:3 olduğu zaman həlledici görüş keçirilməlidir. Görüşün hansı çəki dərəcəsində olacağı isə püşkatma ilə müəyyən edilir. Püşkatma nəticəsində həlledici görüşün 63 kiloqram çəki dərəcəsində keçirilməsinə qərar verilib. Bu çəkidə idmançımız Fidan Əlizadə zədəli olduğu üçün görüşə çıxa bilməyib və qələbə Fransa komandasına verilib.

Qeyd edək ki, idmançılarımız fərdi yarışlarda 1 gümüş və 2 bürünc medal qazanıb.

## Bosniya və Herseqovina-Azərbaycan oyunu heç-heçə yekunlaşıb

On doqquz yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Bosniya və Herseqovinadakı təlim-məşq toplanışını çərçivəsində bu ölkənin müvafiq yaş qrupundan ibarət yığması ilə növbəti yoldaşlıq oyunu keçirib.

Qarşılaşma 2:2 hesabı ilə başa çatıb. Millimizin qollarını 3-cü dəqiqədə Nəriman Axundzadə və 73-cü dəqiqədə Qurban Səfərov vurublar.

Qeyd edək ki, oyunun 69-cu dəqiqəsində Nuğay Rəşidov qırmızı vərəqə alıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Hətəmova Xaliqə Zahid qızına məxsus AD № 0039996 nömrəli və kiçik çavuş Əliyev Kamran Əliağa oğluna məxsus AO № 1156326 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 832
Nüsxə 4660